# JANR ZƏRİFLİYİ, DUYĞU İNCƏLİYİ

## yaxud Xələflinin bayatılar aləmindən



*Şəfəq NASİR,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*yazıçı*

Təxminən iki ay əvvəl şair, yazıçı-publisist, sözün həqiqi mənasında böyük Ədəbiyyat adamı olan Əli Rza Xələflidən xahiş etdim ki, irihəcmli bir nəsr əsəri üzərində işləyirəm, mənə bir neçə aşiqanə ruhda yazdğı bayatılarından göndərsin. İnsafən, sözümü yerə salmadı, dedi gözlə, hazır olan kimi elektron poçtuna göndərəcəm. Bəli, bir neçə gün ötdü, poçtuma bayatı axını başladı, nə başladı... Hər gün sabahın gözü açılar-açılmaz, sanki qızılgülün şehli ləçəklərində gələn bayatıları yığıb-yığışdıra bilmirdim ki! Alan kimi, dərhal onlara göz gəzdirir, bu məcunu bulaq suyu təki "içirdim". İncə ruhlu bayatıların xoş ətri gözümə, könlümə dolur, bihuş edirdi məni... Allah, hər misradan puçur-puçur süzülən sözlərdəki bu rəng, bu səs, ahəng nəydi belə... Heyrət edir, düşünürdüm, görəsən Xələfli bu məxmər bayatıları ovqatının hansı məqamlarında yazıb... Gülüzlü bayatılar cilvələnmiş Sona təki ovsunladı məni...

Sənsən qibləm, ey Pərim,
Mənim Arzu-Qənbərim.
Səcdənə yol seçmişəm,
Eşqimdə peyğəmbərim.

Gəzərriksən, gəzərsən,
Üzərriksən, üzərsən...
Mən bir tənha qağayı,
Sən dalğalı Xəzərsən.

Açıldın yaxa-yaxa,
Göründün çaxa-çaxa.
Gözümə işıq saldın,
Mən qaldım baxa-baxa.

Bir əsirəm səsi yox,
Səsi yox, nəfəsi yox.
Ümüdi bircə sənsən,
Yetimin kimsəsi yox...

Gecədi... çimirim yox,
Bir səsim-səmirim yox...
Gözümə yuxu göndər,
Özgə bir əmirim yox...

Bəxti oyuna biçdim,
Sözü toyuna biçdim...
Xam ipək düşüncəmi,
Sənin boyuna biçdim...

Ürəyimdə xal qara,
Sən bütövsən mən para...
Paranı çək sinənə,
Qoy sağalsın bu yara...

Gəl gedək bir bazara,
Qismət var hər güzara...
Verək ürək-ürəyə,
Son qoyaq intizara...

Arzum sınıq gül kimi,
Saralır sünbül kimi...
Əmanətin sinəmdə,
Çırpınır bülbül kimi...

Qanım ağlar qanınca,
Canım yanar canınca...
Dəsmal elə bir görüm,
Apar məni yanınca...

Eşqimi qalda gördüm,
Dilini balda gördüm...
Mən yeridim səhraya,
Məcnunu yolda gördüm...

Bir gün - əslində, bir kitablıq bu bayatıları bir yerə toplayıb üz tutdum "Kredo"qəzetinin redaksiyasına. Vərəqlərə çıxardığım bu ovqat incilərini şairə təhvil verdim: - Götürün, təzə bayatılarınızdı, mən aldığımı aldım, muğayat olun ki, it-bata düşməsin, nə vaxtsa bir kitabınıza daxil edərsiniz, dedim. Əli Rza müəllim bir göz qırpımında bayatılara göz gəzdirdi, elə bil bir az təəccüb, həm də minnətdarlıq hissilə üzümə baxdı və sevincək xəbər aldı ki, sən bunları, nə vaxt, necə topladın, nə yaxşı pozub-eləməmisən. Heç inanmıram bunların hamısı özümdə qalmış ola... Bu heyrət və sevincdən istifadə edib, vaxtı itirmədən bir qədər ciddi, həm də amiranə səslə (etirazını qabaqlamaq üçün) dedim ki, bayatıları qəzetinizin növbəti sayında dərc edin, yoxsa bunları da itirəcəksiniz hayıf olacaq. Eşitmişdim ki, ovqatının təzadlı vaxtlarında bədahətən dediyi o qədər bayatıları yoxa çıxıb ki... İndi də etiraz etdi, qalsın, sonra baxarıq deyib, yaxına qoymaq istəmədi. Amma uzun-uzadı təkidli xahişimdən sonra onu razı sala bildim, özüm də bayatılara yığcam bir giriş sözü yazacağımı bildirdim... Bunu bəlkə sözgəlişi demişdim, amma bu çəkidə ədəbi yükü düşünmədən boynuma götürməkdən peşman deyildim. Çünki, müəllifin yepyeni bayatılarında duyduğum incə ruh, zəriflik, kövrəklik və duyğusallıq düşüncəmi sarmışdı. Sözlər, fikirlər şipşirin bir nağıl aləminə çəkib-aparırdı məni...

İndi gecədən xeyli ötmüş, qızılgül ləçəklərinin ətrini, gözəlliyini duyduğum həmən bayatılardan bir çələng hörmək arzusu ilə bilgisayarın arxasına keçmişəm. Heç bilmirəm, bir yığın sözümü-fikrimi ipə-sapa necə düzəcəm...

Biz bəzən bir şairin yaradıcılığından - poeziyasından, yaxud nəsrindən bəhs edəndə onun ağız ədəbiyyatından, folklordan bəhrələndiyini xüsusi vurğulayır, sözümüzün təsirini artırmaqdan ötrü müqayisə, paralellər aparırıq. Çox vaxt bu cəhəti olduğundan artıq, şişirdərək təqdim etməyə çalışır, necə deyərlər, sözün, fikrin dozasını bir qədər də artırırıq. Əli Rza Xələflinin bayatılarını oxuyanda bunları bir daha xatırladım... İndi mən onun "sözünün çiçəyi, gülü" olan xoş duyğulu, rayihəli bayatı qəhrəmanının - gözəlin (zənnimcə, bu bayatılarda bir bəxtəvər dilbərin obrazı var - Ş.N.) üzündən niqabını necə bir ehtiyati-ehtizazla götürüm ki, onun gül çöhrəsinə zərrəcə xələl gəlməsin...

Əli Rza Xələfli şifahi xalq ədəbiyyatımızın ən zərif, kövrək növlərindən olan bayatıya yepyeni bir ruh, nəfəs, ahəng gətirib, yeni don biçib. Nənə-babalarımızın bayatı ruhlu sözündən, söhbətindən maya tutub. "Bayatı mənim içimdə göyərməyib, mən bayatının içində göyərmişəm", deyərkən, bu hikmətin ona hardan gəldiyinə işarə edib. Şairin açması göz qabağındadı, daha uzağa getmək nəyə lazım... Bəs necə oldu ki, az bir vaxtda bu qövsi-quzeh paklığında bayatılar yarandı. İlk bayatılar toplusundan "Bir bayatı çağırdım" (2013) kitabının nəşrindən altı il sonra onun ruhu yenə göy üzünə pərvazlandı: Əli Rza suya həsrət torpaq təki yanıb-qovruldu, bir dəli istəklə ana bətnindən dünyaya gəlməyə tələsən körpənin işığı boyda sevgisi gül-gül açıldı. Hər gülün də öz ətri, öz rayihəsi... Mübaliğə etmədən deyə bilərəm ki, müəllifin içində bir vəhy kimi doğulan tərtəzə, təravətli duyğular, sanki Əli Rza Xələflinin ruhdaşına, can sirdaşına xitabıdır.

Mən deməzdim ki, Əli Rza Xələflinin bayatıları və ümumilikdə bayatı yaradıcılığı ədəbi düşüncəmizin diqqətindən kənarda qalıb. Doğrudur, filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev (o, Ə.R.Xələflinin "Bir bayatı çağırdım..." kitabına Ön söz yazıb), filologiya elmləri doktoru, professor Sevil Mehdiyeva, fəlsəfə üzrə fəlsəfə doktoru, tənqidçi-esseist Sabir Bəşirov, filologiya üzrə fəlsəfə doktoru, folklorşünas Elxan Məmmədli, folklor tədqiqatçısı Elçin Quliyev (İşıqlı Atalı) və bir çox başqaları da onun bayatıları haqqında söz deyib, fikir söyləyib. Xələfli bayatılarını ədəbiyyatımızın ən dəyərli səhifələri kimi xarakterizə ediblər. Ancaq düşünürəm ki, bunlar geniş tədqiqat mövzusu olacaq yaradıcılığa tam cavab vermir. Bir sözlə, Əli Rza Xələflinin mövzu əhatəsinə görə, bayatı yaradıcılığı əsaslı tədqiqatını gözləyir. mənim isə indilikdə məqsədim bayatı çəməninin təzə çiçəkləri haqqında danışmaqdır.

Yazıya başlamazdan əvvəl şairin "Bir bayatı çağırdım" kitabındakı dördlüklərlə tanış oldum və onları yenicə topladığım bayatılarla müqayisə etdim. Ruh yeni, müraciətin forması fərqli, həm də təzadlı bir ovqatda yazılmış bu ruhsal bayatılardan ürəkdolusu danışmamaq mümkünmü...

Bu bayatılar müəllifin izhar etdiyi kimi, öz içində göyərib, ruhunda məkanlaşıb. Belə olmasaydı bu qüdrətdə, bu təravətdə, incə bir zövqlə, nizamlı şəkildə bir bayatı köçü yola çıxa bilərdimi...

Bayatı nədir? Zənnimizcə belə bir sual bayatı çağıran nə Dədə Ələsgərin, Sarı Aşıqın və digərlərinin ağlına belə gəlməyib. Bəlkə buna ehtiyac da yaranmayıb, əsas odur ki, el-ağız ədəbiyyatımızdan üzü bu yana xalqımızın qəhrəmanlıq tarixini, vətən, yurd-oba məhəbbətini, aşiqanə sevgiləri vəsv edən gözəl bayatılarımız yaranıb. Amma Əli Rza Xələfli bayatı sözünün özünə olduqca həssas yanaşıb, şifahi xalq ədəbiyyatımızın ruhla, ovqatla bağlı bu növün mənasına varıb, müəllifin bu fikirlərini bayatıya verilən tərif kimi də qəbul etmək olar: "Bayatı tarixən el ağzından gəlmə sözdür. Özü də sözün çiçəyi, gülüdür. Janrın dili, ruhu, onun sadəliyini, təmizliyini tələb edir. Bütün bunlara baxmayaraq, həm də bayatı ayrı-ayrı məqamlarda müxtəlif ovqatlar üzərində köklənmənin bəhrəsidir. Əsasən bayatı üçün səbəb, hadisə, hər hansı bir əhvalat, qaynaq olur..." Nə gözəl demisiz: sözün çiçəyi, gülüdür bayatı... Bəs görən, bu gülə, çiçəyə marağınız hardan və nə zamandan yaranıb...

Bədii, obrazlı sözə maraq, istək Ə.Xələflinin könlündə hələ uşaqlıq çağlarından doğulub, özü də sınıq-salxaq görkəmdə yox, yaraşıqlı və bütöv şəkildə! Böyük inamla, ən əsas da yaradıcılıq yoluna az-çox bələd olan qələm adamı kimi deyirəm ki, Xələfli yaradıcılığının mayasında xalq ruhunun, xəlqiliyin işığı var, başqa sözlə, Xələfli bu işığın içində doğulub, boya-başa çatıb, kamala yetib. Şairdə sözün sehrinə düşmək, onu alınca qaynatmağın özü də Haqdan gələn bir vergidir. Kim başımızın üstündə ildırımlar çaxdıra, yağışı yağdıra bilər... yalnız təbiət, onun yaratdığı minlərlə möcüzə. Vallahi, Əli Rza Xələflinin özü də təbiətin möcüzələrindən biri kimi, Tanrının ədəbiyyatımıza bəxş etdiyi hadisədir. Sözün bütün mənalarında o, abidə adamdır.

Niyə də etiraf etməyək ki, Əli Rza Xələfli şifahi xalq ədədbiyyatının qaynaqlarından, nənələrimizin söz boxçasından qidalanıb, hər çiçəkdən bir ləçək alıb, şirə çəkib, amma onların ruhunu, ahəngini təkrarlamayıb. Özünün dediyi kimi, bayatının içində göyərib. Mübaliğə etmədən deyərəm ki, onun içində vəhy kimi doğulan bayatıların sözün təravətli səsi, rəngləri ilə cilalaması - canı da, qanı da özündən olan övladları kimi ona məxsusdur! Bundan artıq nişan, əlamət olmaz ki! Duyduğunuz kimi, söhbətimdə şairin "Bir bayatı çağırdım" kitabındakı bayatılarla, haqqında söhbət açacağım yeni bayatılar arasında qurduğm mənəvi körpüdə gəzişmələr edirəm.

Dağ baba - Gordu baba,
Xaraba yurdu baba.
Bıçaqdadı qurdağzı
Ulamaz qurdu, baba.

Güzgədağa ün düşməz
Duman altda gün düşməz.
Bəxti sınan güzgüyə,
Kimsə baxmaz, yön düşməz...

Bu cilalı, biçimli bayatıların hamısı Əlirza Xələflinin canından, qanından ayrılaraq bağrından bir atəş təki, vulkan kimi püskürüb... İndi də şairin yenicə dünyaya göz açmış, vücudu pak körpə kimi təptəzə sözünün düşüncəmdə doğurduğu, bir rəssam fırçasıyla çəkdiyi mənzərəsinə, bu rənglərdən aldığım fikrə, dolduğum qənaətə gəlirəm. Sözümün əvvəlində qeyd etdiyim kimi, Əli Rza Xələflinin bayatıları adamın gözünə, könlünə hiss kimi, məxməri bir ahənglə dolur, bundan necə ruhlanmayasan, sevinib-sevindirməyəsən!

Mən bu bayatıları gül üzlü gözəlin simasında kövrək, allı-güllü biçimli bir süjetdə belə sıralayardım: Lirik "mən" aşiq olub, eşqə düşüb, sevgilisi ilə hələ üz-üzə gəlməyə cəsarət etmir, hisshəyəcan ürəyini uçundurur. Qərara gəlir ki, hisslərini, sevgisini kiçik bayatılar şəklində yazb gülüzlü məşuquna göndərsin. Elə də edir. Bu, o çağacan davam edir ki, o gözəl də aşiqi ilə qarşı-qarşıya gələndə yanaqları gül təki allanır, gözlərində işıq yanır... Bundan coşan, təbi çiçəkləyən Aşiqin bayatılarının qarşısını kəsməkmi olar! Eşqi selə dönüb bəndi-bərəni dağıdır, gözəlini sevgi yağışına qərq edir Aşiq... Bayatıların hər bəndi, hər beyti, sətri belə, hələ göz görməyən, səs-ün eşitməyən bir füsunkarlığı, əsrarəngizliyi ifadə edir. Lirik təsvirlər, ifadələr, hədəfinə dəyən oxlar, həsrət, yanğı, ümidlər o qədər təbii, gerçək ki, adamın ürəyini alıb aparır. Bu hissin də, ağılın da ən uca məqama yetirdiyi Eşqdir.

*(Davamı 16-cı səhifədə)*